**7-ci Xülasə** Yanvar 2011-ci il

## Dövlət satınalmaları

# Təsərrüfat subyektlərinin seçilməsi

MÜNDƏRİCAT


- Ümumi kontekst:
- Təsərrüfat subyektlərinin seçilmə meyarları
- Ümumi tələblər
- İqtisadi və maliyyə vəziyyəti
- Texniki bacarıq və/və ya peşəkar bacarıq
- Yekun mərhələyə buraxılan təsərrüfat subyektlərinin siyahısı
- Çatışmayan və natamam dəlillər
- Təsdiq edilmiş təsərrüfat subyektlərinin rəsmi siyahıları
- Seçim strategiyasının müəyyən edilməsi


EUROPEAN COMMISSION
OECD BETTER POLICIES FOR BETTER LIVES
www.sigmaweb.org
Bu sənəd Avropa İttifaqının maliyyə yardımı ilə hazırlanmışdır. Burada ifadə olunan fikirlər heç vəchlə Avropa İttifaqının rəsmi rəyi kimi qəbul edilə bilməz və İƏİT, yaxud ona üzv dövlətlərin və ya Sigma proqramında iştirak edən benefisiar ölkələrin fikirlərini əks etdirməyə bilər.

Müqaviləni yerinə yetirmək və tamamlamaq bacarığına malik təsərrüfat subyekti ilə müqavilə bağlayacağını bilmək satınalan təşkilat üçün çox vacibdir. Buna görə də, satınalan təşkilat təsərrüfat subyektlərinin əsas qanunvericilik tələblərinə uyğunluğunu, maliyyə resurslarını, təcrübə və bacarıqlarını, texniki resurslarını yoxlamaq və bu cür yoxlamalardan keçə bilməyən təsərrüfat subyektlərini satınalama prosesindən kənarlaşdırmaq istəyə bilər. Bu seçim və ya ixtisas uyğunluğunun qiymətləndirilməsi prosesi adlanır.

Təsərrüfat subyektlərinin seçilməsinə bir qayda olaraq iki ayrıca mərhələ daxil olur. İlk növbədə satınalan təşkilat təsərrüfat subyektinin iştirakdan kənarlaşdırılması üçün əsasın olub-olmadığını müəyyən etməlidir. Daha sonra müsabiqədən kənarlaşdırılmamış təsərrüfat subyektlərinin iddiaçı kimi seçilmək üçün müvafiq tələblərə cavab verib-vermədiyi nəzərdən keçirilməlidir. Seçilmiş təsərrüfat subyektləri təklif verməyə, danışıqların aparılmasına və ya dialoqda iştirak etməyə dəvət edilirlər. Açıq prosedur keçirildiyi halda, onların təqdim etdiyi təkliflər qiymətləndirilir.

Təsərrüfat subyektlərinin seçilməsi hansı təsərrüfat subyektlərinin müqavilənin icra edilməsi üçün müvafiq ixtisasa malik olduğunun qiymətləndirilməsi və qərarlaşdırılması prosesini nəzərdə tutur. Bu proses satınalan təşkilat tərəfindən əvvəlcədən müəyyən edilən və təsərrüfat subyektlərinə açıqlanan obyektiv, ayrı-seçkiliyə yol verməyən və şəffaf seçim meyarlarının tətbiq edilməsi ilə keçirilməlidir.

Direktiv satınalan təşkilatın bu sahədəki fəaliyyət azadlığını mühüm dərəcədə azaldır: burada satınalan təşkilatın istifadə üçün seçə biləcəyi seçim meyarlarının siyahısı verilir, satınalan təşkilatın seçim meyarlarının ödəndiyini yoxlamaq məqsədi ilə təsərrüfat subyektindən tələb edə biləcəyi dəlil və ya istinadlar, həmçinin seçim prosesi ilə əlaqədar ümumi qaydalar müəyyən edilir.

Direktiv satınalan təşkilatların ayrı-seçkiliyi ört-basdır etmək fürsət əldə edə bilməməsinə və təsərrüfat subyektlərinin ədalətli iştirak imkanları ilə təmin edilməsinə zəmanət verməyə çalışır. Əsas məqsəd Cəmiyyət daxilində ticarətin məhdudlaşdırılmamasını, Müqavilənin xidmətin təmin edilməsi və iqtisadi fəaliyyət azadlığı prinsiplərinə əməl olunmasını təmin etməkdir.

## Hansı seçim meyarlarından istifadə edilə bilər?

Təsərrüfat subyektinin konkret müqaviləni yerinə yetirmək üçün uyğun ixtisasa malik olduğunu müəyyən etmək üçün satınalınan təşkilat yalnız aşağıdakı meyarlardan istifadə edə bilər:

- Təsərrüfat subyektinin vəziyyəti:
    - Təsərrüfat subyektinin kənarlaşdırılması məcburiyyətini doğuran səbəblər
    - İxtiyari istisna edilmə üçün əsaslar
- Peşəkar fəaliyyət üçün yararlılıq
- İqtisadi və maliyyə vəziyyəti
- Texniki bacarıq və/və ya peşəkar bacarıq

**Təsərrüfat subyektlərinin vəziyyəti: Təsərrüfat subyektinin müsabiqədən kənarlaşdırılması məcburiyyətini doğuran səbəblər:** Satınalan təşkilat aşağıdakı cinayət fəaliyyətləri ilə əlaqədar olaraq barəsində yekun məhkəmə hökmü çıxarıldığı məlum olan təsərrüfat subyektlərini müqavilənin təltif edilməsi prosedurunda iştirakdan məhrum etməyə borcludur:

- Cinayətkar təşkilatda iştirak
- Korrupsiya
- Saxtakarlıq
- Çirkli pulların yuyulması

**Təsərrüfat subyektlərinin vəziyyəti: İxtiyari kənarlaşdırılma üçün əsas təşkil edən amillər:** Satınalan təşkilat aşağıdakı təsərrüfat subyektlərini satınalama prosesindən kənarlaşdıra bilər, lakin bu məcburi şərt deyil:

a) Milli qanun və normalara əsasən müflis olan və ya analoji vəziyyətdə olan təşkilatlar
b) barəsində müflisliyin elan edilməsi üzrə prosedur və ya milli qanun və normalara uyğun olaraq oxşar prosedur başladılmış təsərrüfat subyekti
c) sözügedən ölkənin hüquqi normalarına uyğun olaraq, barəsində peşəkar davranışla əlaqədar hüquq pozuntusu haqqında, qanuni qüvvəyə malik məhkəmə qərarı çıxarılmış təsərrüfat subyekt;
d) satınalan təşkilat tərəfindən nümayiş etdirilə biləcək hər hansı vasitə ilə sübuta yetirilmiş, peşəkar davranışla bağlı ciddi xətaya yol vermiş təsərrüfat subyekti;
e) təsis edildiyi və ya satınalan təşkilatın təsis etdiyi ölkədə sözügedən ölkənin hüquqi normalarına əsasən sosial sığorta ödəmələri ilə əlaqədar öhdəliklərini yerinə yetirə bilməmiş təsərrüfat subyekti;
f) təsis edildiyi və ya satınalan təşkilatın təsis etdiyi ölkədən sözügedən ölkənin hüquqi normalarına əsasən vergi ödəmələri ilə əlaqədar öhdəliklərini yerinə yetirə bilməmiş təsərrüfat subyekti;
g) təsərrüfat subyektlərinin seçimi məqsədilə tələb olunan məlumatları təqdim edərkən ciddi təhrifə yol verməkdə təqsirli olan və ya ümumiyyətlə bu məlumatı təqdim etməmiş təsərrüfat subyektləri.

Milli qanunvericilik bu ixtiyarı kənarlaşdırılma səbəblərindən bəzilərini məcburi istisna edilmə şərti kimi müəyyən edə bilər.

## İxtiyari və ya məcburi kənarlaşdırılma üçün heç bir əsasın olmadığının sübuta yetirilməsi üçün təsərrüfat subyektlərindən hansı dəlillər tələb edilə bilər?

Şəffaflıq prinsipinə uyğun olaraq, satınalan təşkilat müqavilə haqqında bildirişdə tətbiq olunacaq ixtiyari və məcburi kənarlaşdırılma səbəblərini, eləcə də təsərrüfat subyektlərindən kənarlaşdırılma üçün əsasın olmadığını sübutu üçün tələb olunacaq məlumatları göstərməlidirlər.

Satınalan təşkilat təsərrüfat subyektinin müsabiqədən kənarlaşdırılması üçün əsasın olmadığını müəyyən etmək üçün Direktivdə sadalanan dəlil növləri ilə kifayətlənməlidir.

Məcburi kənarlaşdırılma səbəblərindən söhbət getdikdə, bu dəlil məhkəmə protokolu və ya onun ekvivalentindən çıxarış, ölkədə bu cür sənədlər verilmədiyi təqdirdə isə, and altında bəyanat və ya rəsmi bəyanat formasında olmalıdır. Müvafiq olduqda, satınalan təşkilat təsərrüfat subyektindən müsabiqədən kənarlaşdırılması üçün əsasın olmadığına dair dəlil təmin etməyi tələb etməlidir.

İxtiyari kənarlaşdırılma səbəblərinə dəldikdə isə, bu halda dəlillərin növü sözügedən ixtiyari kənarlaşdırılma səbəbindən asılı olur. Peşəkar davranışla bağlı ciddi xətalar və məlumatların ciddi surətdə təhrif edilməsi hallarında məqbul dəlil növlərini satınalan təşkilat müəyyən edir.

**Başqa üzv dövlətlərdə yerləşən təsərrüfat subyektləri:** Təcrübədə satınalan təşkilatın başqa üzv dövlətdə yerləşən təsərrüfat subyektinin məcburi və ya ixtiyari qaydada kənarlaşdırılma üçün əsasın olmadığını sübut etmək üçün təqdim edə biləcəyi sənədlərin/dəlillərin növünü, eləcə də milli qanunvericiliyə əsasən bu sənədləri/dəlilləri verə biləcək səlahiyyətli orqanları müəyyən etməsi çətin ola bilər.

Müxtəlif üzv dövlətlərə aid belə məlumatların əldə edilməsinin asanlaşdırılması üçün, Komissiya xidmətləri (DG-Daxili bazar) bir sıra üzv dövlətlər tərəfindən doldurulmuş və müvafiq məlumatların daxil olduğu anketlər hazırlamışdır. Tamamlanmış anketlər aşağıdakı veb-saytdan endirilə bilər:
http://ec.europa.eu/internal_market/publicprocurement/2004_18/index_en.htm

## Seçim mərhələsi meyarlarının istifadəsinə hansı ümumi tələblər qoyulur?

Şəffaflıq prinsipinə uyğun olaraq, satın alan təşkilat müqavilə haqqında bildirişdə tətbiq olunacaq seçim mərhələsi meyarlarını və müvafiq məlumatı təmin etməlidir.

Satınalan təşkilat təsərrüfat subyektinin müvafiqliyini, iqtisadi və maliyyə vəziyyətini, texnki/peşəkar bacarıqlarını nəzərə ala bilər, lakin buna məcbur deyil. Buna görə də satınalan təşkilat icazə verilən seçim meyarları çərçivəsində nəyi tələb edəcəyini və nəyi tələb etməyəcəyini öz mülahizəsi əsasında qərarlaşdıra bilər.

Meyarlar müqavilənin predmeti ilə əlaqəli və proporsional olmalıdır. Zəruri olmayan və qeyri-müvafiq meyarların müəyyən edilməsi uyğun ixtisasa malik olmayan təsərrüfat subyektlərinin cəlb edilməsinə və ya yararlı təsərrüfat subyektlərinin iştirakdan çəkinməsinə gətirib çıxara bilər.

Təsərrüfat subyektlərinin cavab verməli olduğu minimum potensial səviyyəsinin müəyyən edilməsi satınalan təşkilatın öz öhdəsinə buraxılır. Bununla belə, satınalan təşkilatın müəyyən etdiyi minimum potensial hədd müqavilə predmeti ilə əlaqəli və proporsional olmalı və müqavilə haqqında bildirişdə göstərilməlidir.

Heç bir halda müəyyən edilmiş meyarlar dəyişdirilə bilməz və ya meyarlardan təsərrüfat subyektlərinin seçilmə prosesində imtina edilə bilməz. Bu mərhələdə müəyyən edilmiş meyarlar olduqları kimi tətbiq edilməlidir.

## Müəyyən edilmiş seçim meyarları necə tətbiq edilir?

### Peşəkar fəaliyyət üçün yararlılıq

Satınalan təşkilat təsərrüfat subyektinin uyğunluğunu, ümumi baxımdan və peşəkar fəaliyyəti yerinə yetirmək üçün müvafiqliyini təsis olunduğu üzv dövlətdə ticarətdə reyestrinə cəlb olunduğuna dair dəlillər tələb etməklə yoxlaya bilər. Bu dövlətlərdə müvafiq reyestrlər olmadıqda, təsərrüfat subyektləri öz milli qanunvericiliklərinə uyğun olaraq şəhadətnamə və ya and altında bəyanat verə bilər. Hər bir Aİ-yə üzv dövlət üçün reyestrlər, müvafiq bəyanatlar və ya şəhadətnamələr Direkitivin müvafiq əlavələrində sıralanır.

Başqa üzv dövlətdə təsis edilmiş təsərrüfat subyektindən satınalan təşkilatın ölkəsində ticarət reyestrində qeydiyyat tələb edə bilməz. Belə bir tələb həm Direktivin həm də malların sərbəst hərəkəti prinsipinin pozulması deməkdir.

## İqtisadi və maliyyə vəziyyəti

Satınalan təşkilat təsərrüfat subyektinin iqtisadi və maliyyə vəziyyətini nəzərə ala bilər. İqtisadi və maliyyə vəziyyəti meyarı təsərrüfat subyektinin bağlanan müqaviləni icra etmək və tamamlamaq üçün kassada nağd pul, kredit xətti kimi adekvat maliyyə resurslarına (müqavilənin icrası müddətində) malikliyinin qiymətləndirilməsi məqsədini daşımalıdır.

**Təsərrüfat subyekti öz iqtisadi və maliyyə vəziyyətini sübuta yetirmək üçün başqa müəssisələrin resurslarına arxalana bilərmi?:** Bəli, müvafiq olduqda və konkret müqavilələrə münasibətdə təsərrüfat subyekti başqa müəssisələrin potensialına arxalana bilər. Bu halda təsərrüfat subyekti, məsələn, həmin müəssisələrlə bu haqda razılaşmaya gəlməklə, zəruri resursların ixtiyarında olacağını sübuta yetirməlidir. Bu imkan təsərrüfat subyektlərinə törəmə müəssisələrin, eləcə də subpodratçıların, yaxud öz resurslarını faktiki olaraq təsərrüfat subyektinin ixtiyarına vermiş hər hansı digər müəssisənin iqtisadi və maliyyə resurslarına arxalanmaq imkanı verir. Eyni şərtlər altında bir qrup təsərrüfat subyekti də digər müəssisələrin və ya qrup iştirakçılarının potensiallarına arxalana bilər.

**Təsərrüfat subyektindən iqtisadi və maliyyə vəziyyətinin sübuta yetririlməsi üçün tələb oluna biləcək dəlillər:** Direktiv satınalan təşkilat tərəfindən təsərrüfat subyektindən iqtisadi və maliyyə vəziyyətinin sübutu üçün tələb oluna biləcək dəlillərin növlərinin siyahısının təmin edir: Lakin bu siyahı tam siyahı sayıla bilməz. Buna görə də satınalan təşkilat əsas satınalma prinsiplərinə uyğun gəlmək şərti ilə Direktivdə sadalanmayan başqa dəlillər də tələb edə bilər. Direktiv bir mənalı olaraq təsərrüfat subyektlərindən müqavilənin predmeti ilə əlaqəli və proporsional dəlillərin/məlumatların alınmasını tələb edir.

## Texniki və/və ya peşəkar bacarıq

Satınalan təşkilat təsərrüfat subyektlərinin texniki və/və ya peşəkar bacarıqlarını nəzərə ala bilər. Texniki və/və ya peşəkarlıq bacarığı ilə əlaqədar konkret bir meyar təsərrüfat subyektlərinin müqavilənin icra edilməsi üçün müvafiq texniki və/və ya peşəkar bacarıqlarının (səriştəlilik, avadanlıq, işçi qüvvəsi, keçmiş təcrübə və s.) olub-olmadığının qiymətləndirilməsi məqsədi daşımalıdır.

**Təsərrüfat subyektindən texniki bacarığının və/və ya peşəkar bacarığının sübutu üçün tələb oluna biləcək dəlillər:** Direktiv satınalan təşkilatın təsərrüfat subyektindən texniki və/və ya peşəkar bacarıqlarının sübutu kimi tələb edə biləcəyi dəlillərin tam siyahısını müəyyən edir. Siyahı tam siyahı olduğundan, satınalan təşkilat sadalananlar xaricində başqa dəlil tələb edə bilməz. Bununla belə satınalan təşkilat sıralanan bütün dəlilləri tələb etməyə borclu deyil, o yalnız təsərrüfat subyektinin bağlanmalı olan müqaviləyə münasibətdə texniki və/və ya peşəkar bacarıqlarının qiymətləndirilməsi üçün zəruri dəlilləri tələb etməlidir. Dəlillərin siyahısı müqavilə predmetindən asılı olaraq hissələrə bölünür (mal, məhsul və ya xidmətlər).

## Hər hansı dəlil çatışmadıqda, yaxud natamam olduqda, satınalan təşkilat nə etməlidir?

Directivdə birmənalı olaraq bəyan edilir ki, satınalan təşkilatın təsərrüfat subyektlərini təqdim edilən dəlilləri *tamamlanmağa* və *aydınlaşdırılmağa* dəvət etməsinə icazə verilir. "Tamamlayıcı" dəlil və ya "aydınlaşdırma" dedikdə, nəyin nəzərdə tutulduğu direktivdə göstərilmir. Təsərrüfat subyektinin təqdim etdiyi konkret bir dəlillə bağlı çatışmazlığa görə, əlverişli ərizədən imtina effektiv satınalma prinsipinə zidd ola bilər. Digər tərəfdən çatışmayan dəlillərin axtarışı çox vaxt apara, tələb olunmuş bütün dəlillərin təqdim olunmasının gözlənməsi məcburiyyətindən dolayı maraqların ifadəsi ərizələrinin qiymətləndirilməsi üçün, yaxud tender təkliflərinin dəyərləndirilməsi üçün ayrılmış vaxtı uzada bilər. Daha məqsədəuyğun yanaşma satınalan təşkilatların artıq təqdim edilmiş dəlillərlə və əvvəlcədən müəyyən edilmiş seçim meyarları ilə bağlı əlavə dəlil tələb etməsinə icazə verməkdir. Həmçinin təqdim edilmiş dəlildə uyğunsuzluq, təzadlı məlumat olduqda, yaxud nəsə aydın olmadıqda və ya hər hansı məlumat ötürüldüyü halda, satınalan təşkilata dəlili aydınlaşdırmaq səlahiyyətinin verilməsi məsləhətdir.

Təcrübədə və təsərrüfat subyektləri, eləcə də satınalan təşkilat üzərindəki yükün azaldılması məqsədi ilə təqdim edilmiş dəlillərinin təsdiq edilməsi şərtinə məhdudiyyət qoymaq məqsədəuyğundur. Direktivdə bu haqda heç nə deyilmir. Lakin Aİ-yə üzv olan bəzi dövlətlərin milli qanunvericiliklərində satınalan təşkilatların belə məsələləri necə həll ediləcəyinə dair ayrıca müddəalar mövcuddur.

## Sonuncu mərhələyə keçənlərin siyahısının tətbiq edilməsinə icazə verilirmi?

Uyğun ixtisasa malik, təklif verməyə/danışıqlar aparmağa/dialoqa cəlb ediləcək təsərrüfat subyektləri arasından yekun mərhələyə buraxılanların siyahısının tərtib edilməsinə icazə verilir. Bu zaman satınalan təşkilat aşağıdakı məsələləri nəzərdən qaçırmamalıdır:

- Obyektiv, ayrı-seçkiliyi istisna edən meyarlardan (və ya metodologiyalardan) istifadə edilməlidir.

- Təsərrüfat subyektlərinin seçimi zamanı yalnız direktivin icazə verdiyi obyektiv və ayrı-seçkiliyə yol verməyən meyarlar tətbiq edilə bilər. Beləliklə, direktivin icazə verdiyi çərçivədən kənar hər hansı meyarın tətbiqinə icazə verilmir.

- Təsərrüfat subyektlərinin maliyyə və texniki potensialı nəzərə alınmalıdır. Bu təhlil uyğun ixtisasa malik təsərrüfat subyektlərinin müqayisəli sıralanması ilə nəticələnə, bununla da müqavilənin icrası üçün ən yaxşı ixtisaslaşmaya malik təsərrüfat subyektlərini müəyyən edilməsində satınalan təşkilatlara kömək edə bilər.

- Uyğun ixtisasa malik təsərrüfat subyektlərinin müqayisəli sırasının, eləcə də təklif verməyə/danışıqlar aparmağa/dialoqda iştiraka dəvət olunacaq təsərrüfat subyektlərinin müəyyən edilməsi üçün satınalan təşkilat həmçinin çəki qiymətləndirməsi sistemi/bal sistemi yarada bilər.

- Satınalan təşkilatdan yekun mərhələyə buraxılma üçün istifadə edəcəyi obyektiv və ayrı-seçkiliyi istisna edən meyarları və metodologiyaları müqavilə haqqında bildirişdə göstərmək tələb olunur. Bu tələbin məqsədi bərabər yanaşma və şəffafıq prinsiplərinə zəmanət vermək və satınalan təşkilatın sui-istifadə və öz mülahizəsi əsasında fəaliyyət imkanlarını azaltmaqdır.

## Üzv dövlətlər təsdiq edilmiş təsərrüfat subyektlərinin rəsmi siyahısını müəyyən edə və bu siyahıdan istifadə edə bilərlərmi?

Direktiv üzv dövlətlərə təsdiq edilmiş təsərrüfat subyektlərinin rəsmi siyahısını təqdim etməyə icazə verir. Ümumiyyətlə, bu qeydiyyat sistemləri direktivdə müəyyən edilən seçim meyarları ilə bağlı qaydalara uyğun olmalıdır. Rəsmi siyahıda qeydiyyatda olan təsərrüfat subyektlərinə olmayanlarla müqayisədə daha çox imtiyaz verilməməlidir, bundan başqa qeydiyyat sistemi təsərrüfat subyektlərinə istənilən vaxt qeydiyyatdan keçmək imkanı verməlidir. Təsis olunduqları ölkədə rəsmi siyahıya daxil olan təsərrüfat subyektləri müəyyən hədlər çərçivəsində bu qeydiyyatın seçim meyarlarının ödəndiyinə dair alternativ dəlil kimi qəbul edilməsini tələb edə bilərlər.

## Təsərrüfat subyektlərinin seçilməsi üçün ümumi strategiyanın müəyyən edilməsi: nəzərə alınmalı olan əsas məqamların siyahısı

Təsərrüfat subyektlərinin seçilməsi üçün ümumi strategiya tender başlamamışdan əvvəl müəyyən edilməlidir. Bu strategiya Müqavilə prinsipləri daxil olmaqla ümumi hüquq prinsiplərinə, eləcə də milli qanunvericiliyə uyğun olmalıdır.

Təsərrüfat subyektlərinin seçilməsi üçün ümumi strategiyanın müəyyən edilməsi zamanı, satınalan təşkilatın nəzərə almalı olduğu əsas məqamların yoxlanması üçün nəzərdə tutulan siyahının nümunəsi aşağıda göstərilir (* açıq prosedurlara tətbiq edilməməlidir):

- Tətbiq edəcəyiniz seçim meyarları kateqoriyasını müəyyən etmisinizmi?

- Üstünlük verdiyiniz seçim meyarı kateqoriyası daxilində konkret meyarları müəyyən etmisinizmi?

- Tətbiq edilməli olan hər hansı iqtisadi və maliyyə vəziyyəti meyarı, yaxud texniki və/və ya peşəkar bacarıq meyarı ilə əlaqədar minimum potensial səviyyələrinin müəyyən edilməsini məqsədəuyğun hesab edirsinizmi? Əgər məqsədəuyğun hesab edirsinizsə, həmin minimum potensial səviyyələrini müəyyən etmisinizmi?

- Təsərrüfat subyektlərindən seçim meyarlarına cavab verdiklərinin sübutu kimi tələb olunmalı olan dəlilləri/istinadları müəyyən etmisinizmi?

- *Məhdud iştiraklı prosedur, müqavilə haqqında bildirişin əvvəlcədən dərc olunması ilə qapalı prosedur, yaxud dialoq prosedurları zamanı satınalan təşkilat aşağıdakı məsələləri nəzərə almalıdır:

  - Təklif verməyə/danışıqlar aparmağa/dialoqa cəlb olunacaq təsərrüfat subyektlərinin minimum sayını müəyyən etmisinizmi?
  - Təklif verməyə/danışıqlar aparmağa/dialoqa cəlb olunacaq təsərrüfat subyektlərinin maksimum sayının müəyyən edilməsini məqsədəuyğun hesab edirsinizmi? Əgər məqsədəuyğun hesab edirsinizsə:

    - maksimum sayı müəyyən etmisinizmi?

    - uyğun ixtisaslaşmaya malik təsərrüfat subyektləri arasından təklif verməyə/danışıqlar aparmağa/dialoqa cəlb olunacaq təsərrüfat subyektlərini seçmək üçün tətbiq edəcəyiniz meyarları və ya metodologiyaları müəyyən etmisinizmi?

- Məcburi ilkin ixtisas qiymətləndirməsi zamanı istifadəsi zəruri sorğu şablonunun olub-olmadığını müəyyən etmisinizmi?

- Qüvvədə olan müvafiq qanunvericiliyə əsasən aşağıdakıları nə vaxt, necə, harada açıqlayacağınızı müəyyən etmisinizmi:

  - tətbiq olunacaq seçim meyarları?
  - tətbiq edəcəyiniz minimum potensial səviyyəsi?
  - tələb edəcəyiniz dəlillər/istinadlar?
  - təklif verməyə/danışıqlar aparmağa/dialoqa cəlb edəcəyiniz təsərrüfat subyektlərinin minimum sayı?*
  - təklif verməyə/danışıqlar aparmağa/dialoqa cəlb edəcəyiniz təsərrüfat subyektlərinin maksimum sayı?*
  - Uyğun ixtisasa malik təsərrüfat subyektləri arasından təklif vermək/danışıqlar aparmaq/dialoqda iştirak etmək üçün dəvət edəcəyiniz təsərrüfat subyektlərinin seçilməsi üçün tətbiq edəcəyiniz meyarlar və ya metodologiyalar?*

**Kommunal müəssisələr**

Tətbiq edilə biləcək seçim meyarlarının, eləcə də təsərrüfat subyektlərindən tələb oluna biləcək dəlillərin seçilməsi baxımından kommunal müəssisələr daha çox sərbəstliyə malikdirlər. Bir qayda olaraq, açıq, məhdud iştiraklı və ya qapalı prosedurlarda seçim meyarlarını müəyyən edən kommunal müəssisələr obyektiv qayda və meyarlara riayət etməlidirlər.

Kommunal müəssisələr həmçinin ixtisas uyğunluğunun qiymətləndirilməsi sistemləri müəyyən edə və idarə edə bilələr. Bu sistemlər obyektiv meyarlar əsasında idarə edilməlidir və ixtisas uyğunluğunun qiymətləndirilməsi qaydaları satınlaan təşkilat tərəfindən müəyyən edilməlidir. Satınalan təşkilatlar tərəfindən müəyyən edildiklərini nəzərə almasaq, ixtisasa uyğunluğun qiymətləndirilməsi sistemləri təsərrüfat subyektlərinin direktivlə müəyyən edilən rəsmi siyahısı ilə eynidir.

## Əlavə ədəbiyyat siyahısı:

SIGMA Dövlət Satınalmaları haqqında Təlimat Kitabçası